# "İraq-türkman folkloru və ədəbiyyatı"




**AMEA Folklor İnstitutunun təşkilatçılığı ilə görkəmli İraq-türkman tədqiqatçısı Əta Tərzibaşının anadan olmasının 100 illiyi münasibətilə bu adda kitab nəşr olunub.**

Kitabda respublikanın müxtəlif elm və təhsil müəssisələrindən, eləcə də İraqdan və Türkiyədən olan alim və tədqiqatçıların Əta Tərzibaşının geniş elmi araşdırmalarının təhlilinə, həmçinin İraq-türkman folklorunun və ədəbiyyatının ayrı-ayrı problemlərinin işıqlandırılmasına həsr olunmuş məqalələri toplanıb.

Məqalələrdə İraq-türkman elmi-ədəbi fikrinin inkişafında müstəsna yer tutan, türkman folkloru, ədəbiyyatı, mətbuatı, mədəniyyətinə qiymətli araşdırmaları ilə töhfələr verən Əta Tərzibaşının yaradıcılığı diqqətlə təhlil edilib, eləcə də İraq-türkman və Azərbaycan folkloru və ədəbiyyatına dair ayrı-ayrı mövzular elmi-nəzəri aspektdə tədqiqata cəlb olunub.

"Elm və təhsil" nəşriyyatında işıq üzü görən 440 səhifəlik kitabın elmi redaktoru filologiya üzrə fəlsəfə doktoru, dosent Afaq Ramazanova, tərtibçiləri isə filologiya üzrə fəlsəfə doktoru, dosent Səkinə Qaybalıyeva və filologiya üzrə fəlsəfə doktoru Elnarə Hüseynqızı-Əmirlidir.

Ə.Dostəli

Xalq qəzeti.- 2025.- 30 avqust (№183).- S.10.